Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Heydər Əliyev siyasətinin SSRİ dönəmi müasir dövrümüz üçün əhəmiyyətlidir



**Qədim tarixə, mədəniyyətə, dövlətçilik, qəhrəmanlıq tarixinə malik ulu xalqımız özünün xoş və çətin günləri üçün həmişə öndə gedən şəxsiyyətlər yetirir. XX əsrin II yarısı da xalqımızın tarixində çətin və keçməkeşli eyni zamanda, ürəkaçan, parlaq olub. Xalqını, millətini, onun qədim tarixini, mədəniyyətini, incəsənətini, ədəbiyyatını dərindən bilən müasir müstəqil dövlətçilik tariximizin, dövrümüzün təməl daşlarını 60-cı illərin ortalarında qoymağa başlayan müdrik, uzaqgörən, əbədiyaşar rəhbərimiz, görkəmli siyasi xadim Heydər Əliyev xalqımızın XX ısrin ortalarında yetirdiyi parlaq tarixi şəxsiyyətdir.**

Dünya xalqlarının tarixinə nəzər salsaq görərik ki, ictimai-siyasi dövrlərdə həmin quruluşun ziddinə kommunist sovet rejiminin sərt qanunları şəraitində demokratik fikirli ideyaları müdafiə etmək və dəstəkləmək, milli kadr həyata keçirmək, xalqını, millətini qəhrəman xalq olaraq təqdim etməyə heç bir siyasi xadim, tarixi şəxsiyyət cürət etməzdi. Ancaq dünya miqyaslı siyasi xadim Heydər Əliyev 60-cı illərdə DTK-da işləyərkən milli kadr hazırlığına, milli-mənəvi dəyərlərimizin, dilimizin, dinimizin, mədəniyyətimizin, tariximizin inkişafına xüsusi diqqət yetirib, demokratik fikirli ideyaları müdafiə edib. Həmin illərdə Azərbaycanda və Moskvada, həmçinin də dünyanın hər yerində Heydər Əliyev barəsində yüksək ictimai-siyasi fikir yaranmışdı. Onun fəaliyyətinə İttifaq rəhbərliyi yüksək qiymət verirdi və yüksək qiymətin nəticəsi olaraq SSRİ rəhbərliyi Heydər Əliyevi təkidlə, Azərbaycan SSR-ə rəhbər təyin etdi. Çox düzgün seçim edən Sovet rəhbərliyi Heydər Əliyevin şəxsində Azərbaycanın tez bir zamanda sürətli inkişafını görür və hiss edirdi. Qısa zaman kəsiyində Azərbaycanda həyat sanki yenidən başladı. İqtisadi, sosial, mnədəniyyət, incəsənət, kənd təsərrüfatı, sənaye, energetika, maşınqayırma, elm, təhsil, kadrların seçilib yerləşdirilməsi və s. sahələrdə əsaslı dönüş yaradıldı, Azərbaycan nəinki İttifaqda, hətta xarici ölkələrdə tanındı. Heydər Əliyev SSRİ büdcəsindən, şəxsi nüfuzundan və hörmətindən məharətlə istifadə edərək müasir dövrümüzü, bu günümüzü, gələcəyimizi görür və düşünürmüş kimi indiki müstəqil dövlətimizin iqtisadi, sosial bazasınıtam şəkildə qurub və bu günümüzə bəxş edib.

SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə uzun müddət rəhbərlik etmiş, mərkəzi komitə katibi Yuri Vladimiroviç Andropov Brejnevin vəfatından sonra Sovet İttifaqı Kommunist Partiyasaının Baş katibi seçildikdən sonra özünə komanda toplamağa başladı.

Yuri Andropovun Azərbaycan SSRİ-nin ittifaq miqyasında sosial-iqtisadi cəhətdən, kənd təsərrüfatı, yüngül və ağır sənaye sahələrində, neft emalı və neft məhsullarının inkişafında respublika əhalisinin yüksəık səviyyəli həyat şəraitindən, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə yeni-yeni uğurlara imza atmasından və s. sahələrin inkişafından geniş məlumatı var idi. Ona görə də 1969-cu ildən 1982-ci ilədək olan bir dövrdə respublikanı ittifaq miqyasında ən geridə qalmış aqrar respublikadan çox böyük sürətlə iri sənaye ölkəsinə çevirən, yüksək intellektə, biliyə, idarəçilik təcrübəsinə, dövlətçilik fəlsəfəsinə, diplomatik təcrübəyə malik olan, milli siyasəti, millətlərarası münasibətləri, sovet dövlətinin daxili və xarici siyasət xəttinin əsas istiqamətlərini, dünya ölkələrinin siyasət kurslarını, həmin illərdə mövcud olan dünya sosialist sistemi ilə dünya kapitalizm sistemi arasında ziddiyyətli prosesləri, sosialist ölkələrini özündə birləşdirən Varşava hərbi bloku ilə kapitalist, imperialist ölkələrinin hərbi bloku - NATO bloku arasında olan münasibətləri, kosmik tədqiqatları, ölkənin siyasi xəritəsini dərindən bilən SSRİ xalqlarının, dünya xalqlarının və dövlətlərinin dövlət və hökumət başçılarının tanıdığı və siyasi dünya görüşünə yüksək qiymət verdiyi, yüksək enerjili, adı dünya xalqlarının və dövlətlərinin tarixinə bənzərsiz dünyəvi siyasi xadim olaraq daxil olmuş, Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyevi SSRİ hökumətinin rəhbərliyinə gətirmək üçün onu Moskvaya dəvət edir.

Andropov Heydər Əliyevlə söhbət zamanı ona bildirib ki, "siz artıq çox yetkin, dünyada, İttifaq miqyasında tanınan siyasi xadimsiniz, biz istəyirik ki, siz Sovet dövlətinin, hökumətinin rəhbərliyində olasınız, sizin idarəçilik təcrübənizdən, nüfuzunuzdan istifadə edək".

Andropov SSRİ Nazirlər Sovetinin qocaman, təcrübəsiz sədri Tixonovun yerinə Heydər Əliyevi Nazirlər Sovetinə sədr təyin etmək məqsədilə onu Nazirlər Sovetinin sədrinin birinci müavini, Mərkəzi Komitənin siyasi bürosuna üzv təyin edib. Nazirlər Sovetində sosial siyasət komissiyasının sədri təyin edilir. Ölkənin ən böyük sahələrini əhatə edən 14 nazirliyi, o cümlədən nəqliyyat, rabitə, səhiyyə, və s. nazirliklərə rəhbərlik ona tapşırılıb.

SSRİ rəhbərliyində olmasından bu günümüz və gələcəyimiz üçün Azərbaycanın sənaye potensialının genişlənməsi üçün bir sıra ağır maşınqayırma, orta maşınqayırma zavodlarının, neft emalı zavodlarının, yüngül sənaye müəssisələrinin, üzümçülüyün, şərabçılığın, meyvəçiliyin inkişaf etdirilməsi və emal edilməsi üçün istehsal emal müəssisələrinin tikintisi üçün turizm mərkəzlərinin yaradılması üçün, elmin təhsilin inkişafı üçün, kadr hazırlığı üçün Azərbaycanın iqtisadi-sosial tərəqqisinə nail olmaqla bu günümüzü və gələcəyimizi görür və düşünürmüş kimi müasir müstəqil, demokratik, hüquqi, dünyəvi Azərbaycan dövlətinin əsas iqtisadi, sosial bazasını yaratmışdır

Ancaq çox təəssüf ki, Andropovun vəfat etməsi səbəbindən Heydər Əliyevin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən Nazirlər Sovetinə sədr təyin edilməsini, hökumət başçısı vəzifəsində olmasını həyata keçirə bilmədilər.

Hakimiyyətə xəstə, təsrübəsiz Çernenko gətirilsə də ölkəni əslində erməni lobbilərinin əlində alətə çevrilmiş, Heydər Əliyevin fəaliyyətinə qısqanclıqla yanaşan Qarbaçov idarə edirdi. Ona görə ki, Andropov özündən sonra yalnız və yalnız Heydər Əliyevi hökumət başçısı vəzifəsindən dövlət başçısı-Sovet İttifaqı Kommunist partiyasının baş katibi, SSRİ Ali Sovetinin sədri vəzifəsinə gətirilməsini məsləhət bilmişdi. Hətta belə bu məsələ barəsində xarici mətbuat da yazmışdı. Qeyd edilmişdi ki, SSRİ rəhbərliyinə cavan, enerjili, dünyada çox böyük nüfuz qazanmıç Heydər Əliyev layiqdir.

Heydər Əliyev Siyasi Büronun üzvücə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi çox gərgin işləyirdi. O, həm xarici siyasət məsələlərində, həm də iqtisadi islahatların həyata keçirilməsində, sosial problemlərin həllində, həm də dövlət quruculuğunda nəzərə çarpacaq yenilikləri ilə seçilirdi. Onun tükənməz enerji və yaradıcılıqla işləməsi Kremli heyrətə gətirmişdi. Heudər Əliyevin iş metodları haqqında ölkənin hər tərəfində danışılırdı. 1983-86-cı illərdə SSRİ-də qəbul olunmuş islahatların və qanun layihələrinin müəllifləri və komissiya sədrləri içərisində Heydər Əliyevin adı sıx-sıx çəkilirdi. Geniş dünyagörüşü, hərtərəfli biliyə malik olması, tükənməz iş qabiliyyəti, işindəki ciddilik və intizamlılıq, qanunları bilməsi, yüksək məsuliyyət hissinə malik olması Heydər Əliyevə böyük etimad qazandırmışdı.

80-ciillərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Heydər Əliyev qanunvericilik məsələlərində çox fəal fəaliyyət göstərmişdir. Ona 1997-ci ilin yazında Moskva Hüquq Akademiyasının fəxri doktoru adı verilmişdir. O, buradakı çıxışında keçmiş fəaliyyəti haqqında bəzi məqamları açıqlayaraq demişdir: "Biz dövləti, cəmiyyəti və başqa sahələri demokratikləşdirmək üçün az iş görməmişdik. Bu xətt Andropov ölkənin rəhbərliyinə gəldikdən sonra götürülmüşdü. Həmin dövrdə mən görkəmli hüquqşünaslarla, hüquq institutları ilə çov fəal əməkdaşlıq edirdim və xatırlamağa şadam ki, o illərdə mən dərin hüquqi mənaya malik olan çox mühüm sənədlərin hazırlanmasında yaxından iştirak edirdim".



Məsələn, 1983-cü ilin əvvəllərində əmək kollektivləri haqqında qanun hazırlamaq qərara alınmışdı. Buna görə də MK Siyasi Bürosunun qərarı ilə mən bu qanunun layihəsini hazırlayan komissiyanın sıdri təyin olunmuşdum. Mənim komissiyamda hüquqşünaslar, professorlar, akademiklər, o cümlədən Kudryavtsev və başqaları var idi. Biz bu qanunu bir neçə aya hazırladıq. Elə olurdu ki, mən günlərlə şəhər ətrafında komissiyanın üzvləri ilə otururdum və biz müzakirə edirdik. 1983-cü ilin iyununda Ali Sovetin sessiyasında mən layihə haqqında məruzə etdim və biz əmək kollektivləri haqqında ilk qanun qəbul etdik. Bu, onu göstərirdi ki, biz dövlətimizdə qanunçuluğu möhkəmlətmək yolu ilə gedirdik. Sonralar, 1985-1986-cı illərdə isə biz dövlət müəssisəsi haqqında qanun üzərində işlədik. O vaxtlar o komissiyaya Nazirlər Sovetinin sədri Rıjkov başçılıq edirdi, mən bu komissiya sədrinin müavini idim və işçi qrupuna başçılıq edirdim. Biz bu qanunu da hazırlayıb qəbul etdik. Doğrudur, bunların hamısı tarixə çevrilmişdir, çünki həmin sistem, həmin dövlət daha yoxdur. Lakin bunlar dövlət idarəçiliyində qanunçuluq prinsipinin bərqərar edilməsinə doğru, dövlətdə və cəmiyyətdə qanunun nüfuzunun yüksəldilməsinə doğru ilk addımlar idi.

Yeri gəlmişkən mən öz aktuallığını bu gün də itirməmiş olan bir mühüm faktı da xatırlayıram. Mən Dövlət Arditrajının islahatı üzrə komissiyanın sədri idim. Dövlət Arbitrajı dövlətə bir əlavə idi və müstəqil statusa malik deyildi, Nazirlər Sovetinə tabe idi. Bu məsələni bir çox hüquqşünaslar qaldıraraq dedilər bir halda ki, biz demokratikləşdirməyə doğru gedirik, onda Dövlət Arbitrajında islahatlar aparmaq lazımdır. Mən Nazirlər Sovetinin rəhbərlərindən biri idim, burada hamı Dövlət Arbitrajını Nazirlər Sovetinin tərkibindən çıxarmağın və ona müstəqil status verməyin əleyhinə idi. Dövlət Arbitrajının sədri Anisimov idi. O da Dövlət Arbitrajının statusunun vacibliyindən danışırdı. O vaxtlar biz Siyasi Büroda Dövlət Arbitrajında islahatın zəruriliyi məsələsinin həll edilməsinə müvəffəq olduq. Mən sənədin üzərində işləmişdim və şadam ki, hazırlayıb müzakirəyə çıxara bilmişdim. Beləliklə, Dövlət Arbitrajının statusu haqqında qərar qəbul edildi. Dövlət Arbitrajına böyük müstəqillik verdilər, onu Nazirlər Sovetinin tərkibindən çıxartdılar".

1982-1987-ci illərdə Sovet dövlətinin Orta Şərqdə xarici siyasətini, demək olar ki, müdrik, uzaqgörən dünyəvi siyasi xadim Heydər Əliyev aparırdı. O, tez-tez Misir, Liviya, İordaniya, Pakistan, İraq və başqa ölkələrə səfər etmiş, sovet dövlətinin dünya ölkələrinin dövlət başçıları, hökumət rəhbərləri və xalqları tərəfindən yüksək səviyyədə qəbul edilən, tanınan və siyasi dünya görüşünə, fəlsəfi baxışlarına və SSRİ-nin dövlət başçı səviyyəsinə yüksələcək rəhbər kimi qəbul edilən ali rəhbər kimi fəal siyasi danışıqlar aparmışdır. İordaniya kralı Hüseynlə, Misir prezidenti Ənvər Sadatla, İraq və Suriya rəhbərləri Səddam Hüseyn və Hafiz Əsədlə dəfələrlə görüşüb danışıqlar aparmışdır. Heydər Əliyev çıxışlarında qeyd etmişdir ki, "1984-cü ildə təcili surətdə Şama uçmağım tələb olundu. Suriyada böyük bir problem var idi. DTK xəbər vermişdi ki, Hafiz Əsədlə Suriyanın Gizli Xəbər Təşkilatının başçısı vəzifəsində olan qardaşı Rifat arasında toqquşma, dövlət çevrilişi mövcuddur. Bu zaman Hafiz Əsəd xəstə yatırdı. Suriyada rejimin və ya rəhbərin dəyişdirilməsi SSRİ-nin Orta Şərqdə davam etdirdiyi siyasət və strategiya baxımından dözülməz bir fakt idi. Tez Şama getdim. Sağalmaqda olan Hafiz Əsədlə görüşdüm. Xəstəliyinə baxmayaraq görüşümüz 8 saat çəkdi. Ertəsi gün yenidən 6 saat söhbət etdik. Bizim fikrimizə qulaq asdığını zənn edirdim. Az müddət keçdikdən sonra o, qardaşını İspaniyaya sürgün etdi. Beləliklə, problem həll olundu. Siyasi Büro isə rahat nəfəs aldı".

*(Ardı var)*

**Dəmir QURBANLI,**
**Heydər Əliyev siyasətinin təbliğatçısı,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**"Azad Azərbaycan" qəzetinin**
**şöbə müdiri, "Qızıl Qələm",**
**"Azərbaycan bayrağı",**
**"Xalqın nüfuzlu ziyalısı"**
**media mükafatları laureatı**